**Azərbaycan Respublikasının Qaradağ, Çovdar, Göydağ, Daşkəsəmən filiz sahələrinin, Köhnəmədən sahəsinin və Kürəkçay hövzəsi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"ə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 oktyabr tarixli 1757 nömrəli və 2006-cı il 28 dekabr tarixli 1877 nömrəli sərəncamlarına əsasən Azərbaycan Respublikası Hökuməti adından Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə "Londeks Resorsiz S.A.", "Uilli ənd Meyris S.A.", "Farqeyt Mayninq Korporeyşn", "Qlobeks İnteməşnl LLP" şirkətləri adından Baş Nəzarətçi qismində çıxış edən "Mitsui Mineral Development Enceniring Ko. LTD" arasında "Azərbaycan Respublikasının Qaradağ, Çovdar, Göydağ, Daşkəsəmən filiz sahələrinin, Köhnəmədən sahəsinin və Kürəkçay hövzəsi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in 2006-cı il 30 dekabr tarixində imzalandığım nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Azərbaycan Respublikasının Qaradağ, Çovdar, Göydağ, Daşkəsəmən filiz sahələrinin, Köhnəmədən sahəsinin və Kürəkçay hövzəsi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, və hasilatın pay bölgüsü haqqında Saziş"in 4-cü əlavəsində göstərilmiş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin (Azərbaycan Respublikası Baş nazirinin birinci müavini yanında 2007-ci il 24 may tarixində keçirilmiş iclasın 5 nömrəli protokolu əlavə olunur).[*]

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Y. EYYUBOV

Bakı şəhəri, 24 may 2007-ci il

№83

[*] Protokol dərc edilmir.